# İQLİM DƏYİŞİKLİYİNİN İNSANLARA TƏSİRİ

**Azərbaycanda iqlim dəyişikliyi barədə məlumatlılıq səviyyəsinin qiymətləndirilməsi üçün sorğu və bu sorğu əsasında aparılmış tədqiqatın nəticələri**

Bu tədqiqat Kitabısan Tədqiqat Mərkəzinin Danimarka, Finlandiya, Norveç və İsveç səfirlikləri ilə əməkdaşlığı, Skandinaviya Nazirlər Şurasının dəstəyi ilə həyata keçirilən “Nordic Talks: Skandinaviya yaşıl modeli” layihəsi çərçivəsində aparılıb.

kitabistan.org
nordentalks.com

KİTABISTAN

Bu tədqiqat Kitabısan Tədqiqat Mərkəzinin Danimarka, Finlandiya, Norveç və İsveç səfirlikləri ilə əməkdaşlığı, Skandinaviya Nazirlər Şurasının dəstəyi ilə həyata keçirilən “Nordic Talks: Skandinaviya yaşıl modeli” layihəsi çərçivəsində aparılıb.

Bu hesabatı hazırlayan komanda layihə rəhbəri Mələk Hacıyeva, kommunikasiya meneceri Kamran Həsənli, rəqəmsal və istehsal işləri rəhbəri Abbas Ramazanovdan ibarətdir. Küçə sorğularının keçirilməsində göstərdikləri dəstəyə görə Kitabıstan könüllülərinə təşəkkür edirik.

© KİTABISTAN 2024. Azərbaycan, Bakı.

Bütün hüquqları qorunur. Bu hesabat tam və ya hissəli şəkildə istinad edilmədən və ya əvvəlcədən icazə alınmadan çoxaldıla, paylaşıla, nəşr edilə bilməz.

kitabistan.org
nordentalks.com

TƏDQİQAT

# İQLİM DƏYİŞİKLİYİNİN İNSANLARA TƏSİRİ

## Azərbaycanda iqlim dəyişikliyi barədə məlumatlılıq səviyyəsinin qiymətləndirilməsi

KİTABISTAN

# Mündəricat

Giriş ........ 1

Metodologiya ........ 2
Elektron sorğu ........ 2
Küçə sorğusu ........ 2

Nəticələr ........ 3

Təhlil ........ 5
Nəticələrin müqayisəsi ........ 5
İmplikasiya ........ 5
Məhdudiyyətlər ........ 5

# Qutular

Qutu 1 ........ 3

Qutu 2 ........ 4

# Qrafiklər

Qrafik 1: Respontentlərin təhsil səviyyələri ........ 2

Qrafik 2: Sorğuda iştirak edən kişi və qadınların sayı ........ 3

Qrafik 3: Respondentlərin yaşı ........ 3

Qrafik 4: Bölgələrə görə iştirakçılıq Azərbaycan xəritəsi üzərində ........ 4

Qrafik 5: Fərdi töhfələr ........ 4

# Giriş

**Bu tədqiqatın məqsədi Azərbaycan əhalisi arasında iqlim dəyişikliyi ilə bağlı məlumatlılıq səviyyəsini, ictimaiyyətin iqlim dəyişikliyi ilə bağlı təsəvvürü və münasibətinə təsir edən amilləri müəyyən etməkdir.**

Birbaşa keçirilən küçə sorğuları və onlayn sorğuları özündə birləşdirən hibrid metodologiyadan istifadə etməklə biz bu kritik məsələni hərtərəfli tədqiq etməyə çalışdıq.

Bu tədqiqat qanunvericiləri və maraqlı tərəfləri Azərbaycan ictimaiyyətinin iqlim dəyişikliyi ilə bağlı məlumatlılıq səviyyəsi və bu məsələyə münasibəti haqqında məlumatlandıra bilməsi baxımından əhəmiyyətlidir. Bu amilləri anlamaq iqlim fəaliyyətini təşviq etmək və iqlim dəyişikliyinin təsirlərinə davamlılıq formalaşdırmaq istiqamətində effektiv strategiyaların hazırlanması üçün vacibdir.

Sorğuda müxtəlif demoqrafik qrupları təmsil edən 423 nəfər iştirak edib. Respondentlərin əksəriyyəti ali təhsillidir. Küçə sorğusu əsasən Bakı şəhərində aparılsa da, elektron sorğuda Gəncə, Sumqayıt və Lənkərandan da əhəmiyyətli iştirakçılıq müşahidə olunub.

Bu tədqiqatda istifadə edilən hibrid metodologiya hər təbəqəni təmsil edən müxtəlif qrupların iştirakına, bununla da həm şəhər, həm bölgələr, həm də kəndlərdə yaşayan insanların perspektivlərini ələ almağa imkan verib. Küçə sorğularının video və fotoşəkillərdən istifadə etməklə sənədləşdirilməsi mühüm məlumatlar təmin etdiyi halda, onlayn sorğular məlumatların səmərəli şəkildə toplanması və təhlilinə imkan verib.

Bu hesabat tədqiqatın nəticələrini daha detallı təqdim edəcək, iqlim dəyişikliyi barədə məlumatlılığa təsir edən amilləri, bunun qanunvericilər üçün ifadə etdiyi mənanı açıqlayacaq.

# Metodologiya

## Elektron sorğu

Sorğunun elektron variantı hazırlanaraq sosial media və e-poçt siyahıları vasitəsilə iştirakçılara çatdırılıb. Sorğuya demoqrafiya, iqlim dəyişikliyi haqqında məlumatlılıq, hiss edilən təsirlər və fərdi şəkildə atılan addımlar barədə suallar daxil edilib. Cavabları təhlil etmək üçün statistik proqram təminatından istifadə etməklə kəmiyyət təhlili aparılıb. Məlumatları ümumiləşdirmək üçün deskriptiv statistika çıxarılıb və əhəmiyyətli əlaqələri və trendləri müəyyən etmək üçün inferensial statistika metodlarından istifadə edilib.

Qrafik 1: Respontentlərin təhsil səviyyələri




## Küçə sorğusu

Küçə sorğusu zamanı seçmə üsulundan istifadə edilib, ictimai yerlərdə təsadüfi seçilən insanlara yaxınlaşaraq sorğuya cəlb edilmişdir. Əvvəlcədən hazırlanmış xüsusi sorğu vərəqələri sorğu iştirakçılarına təqdim edilərək cavablar toplanıb. Vizual məlumatların əldə edilməsi üçün ***video*** və ***foto*** sənədlərdən istifadə edilib. Trend və fikirləri müəyyən etmək üçün toplanmış məlumatlar nəzərdən keçirilib, kodlaşdırılıb və kəmiyyət əsaslı üsullardan istifadə edilərək təhlil edilib.

# Nəticələr

**Sorğuda 297 onlayn, 126 oflayn olmaqla ümumilikdə 423 nəfər iştirak edib.**

İştirakçılardan 233-ü qadın, 190-ı isə kişidir. Qeyd etmək lazımdır ki, 26-30 yaş qrupuna aid insanlar iştirakçıların ən yüksək faizini (22,6%) təşkil edib. Sorğu təxminən 3 ay müddətində həyata keçirilib.

Küçə sorğusu Azərbaycanın paytaxtı Bakı şəhərində aparılıb. Respondentlərin 63 %-i Bakı sakinidir. Ən böyük iştirakçılıq faizinə sahib digər regionlar isə respondentlərin 9 %-ni təşkil edən Sumqayıt, 7,5 %-ni təşkil edən Gəncə, 7,1 %-ni təşkil edən Lənkərandır.

İqlim dəyişikliyinin hiss edilən təsirlərinə gəldikdə, respondentlərin 81,5 % kimi böyük əksəriyyəti iqlim dəyişikliyindən xəbərdar olduğunu, 91 %-i isə onun təsirlərini hiss etdiyini bildirib. Küçə sorğularında insanlar iqlim dəyişikliyinin təsirlərini ilk növbədə havanın çirklənməsi, ifrat istilər və ekstremal hava şəraiti ilə hiss etdiklərini qeyd ediblər. Bundan əlavə, orta yaşlı və yaşlı insanlar iqlim dəyişikliyi ilə əlaqəli olaraq sağlamlıq problemlərinin artdığını bildiriblər.

**Qutu 1**

**Sorğuda iştirak edən şəhər sakinləri iqlim dəyişikliyinin təsirlərini daha çox havanın çirklənməsi, ifrat istilər və ekstremal hava şəraiti ilə hiss etdiklərini qeyd etdikləri halda, bölgələrdən olan respondentlərin böyük əksəriyyəti iqlim dəyişikliyinin təsirlərini quraqlıq, əkin sahələrinin qeyri-məhsuldarlığı ilə hiss etdiklərini bildiriblər.**

**Bakı və Sumqayıtdan olan respondentlər Xəzər dənizinin səviyyəsinin son 10 ildə bir metrdən çox aşağı düşməsindən də narahatlıqlarını ifadə ediblər.**

Qrafik 2: Sorğuda iştirak edən kişi və qadınların sayı




Qrafik 3: Respondentlərin yaşı






Qrafik 4: Bölgələrə görə anketdə iştirakçılıq Azərbaycan xəritəsi üzərində

- Bakı 63 %
- Sumqayıt 9 %
- Gəncə 7,5 %
- Lənkəran 7,1 %
- Digər bölgələr 13,4 %

Qrafik 5: Fərdi töhfələr




- Suya qənaət
- Enerjiyə qənaət
- Kampaniyalar vasitəsilə iqlim dəyişikliyi haqqında məlumatlılığın artırılması
- Heç nə
- Tullantıların yenidən emalına töhfə
- Ekoloji təmiz nəqliyyatdan istifadə
- Digər

İqlim dəyişikliyi ilə mübarizədə fərdi töhfələri öyrənmək üçün çoxcavablı suallardan istifadə edilib. Fərdi töhfələr baxımından respondentlərin əksəriyyəti (278 nəfər) fəal olaraq suya qənaət etdiyini, 247 nəfəri isə enerjiyə qənaət etdiyini qeyd edib. Bundan əlavə, 125 nəfər kampaniyalar vasitəsilə iqlim dəyişikliyi haqqında məlumatlılığın artırılmasında iştirak etdiyini, 64 nəfər tullantıların təkrar emalı üçün addım atdığını, 43 nəfər ekoloji təmiz nəqliyyatdan istifadə etdiyini bildirib. Bununla belə, diqqətə çatdırmaq lazımdır ki, 74 iştirakçı iqlim dəyişikliyi ilə bağlı heç bir addım atmadığını deyib.

### Qutu 2

**Azərbaycanda ekoloji təmiz nəqliyyat geniş yayılmayıb. Mələsən, velosiped zolaqları Bakı şəhərinin mərkəzi küçələrində son bir ildə çəkilməyə başlayıb. Buna görə də respondentlərin 10,1 %-nin ekoloji təmiz nəqliyyatdan istifadə etdiyini deməsi insanların iqlim dəyişikliyinə həssas yanaşmasının və ekoloji təmiz nəqliyyata tez uyğunlaşmasının göstəricisidir.**

# Təhlil

## Nəticələrin müqayisəsi

Hər iki sorğunun əsas nəticələrindən biri Azərbaycan vətəndaşları arasında iqlim dəyişikliyinin potensial nəticələri ilə bağlı artan narahatlığın müəyyən edilməsi olub. Bununla belə, iştirakçılar təsirləri birbaşa bölüşə bildikləri üçün küçə sorğusu şəxsi təcrübələrlə iqlim dəyişikliyi haqqında məlumatlılıq arasında birbaşa əlaqənin olduğunu ortaya qoydu.

## İmplikasiya

Bu tədqiqatın nəticələri Azərbaycandakı qanunvericilər və maraqlı tərəflər üçün mühüm məna ifadə edir. Əhali arasında iqlim dəyişikliyi ilə bağlı məlumatlılığın olması və fərdi səviyyədə atılan addımlar bu problemin təcili həlli üçün tədbirlər görülməsinə sosial istək olduğunu göstərir. Bundan əlavə, tədqiqat vətəndaşların dəqiq və aktual məlumatlara çıxışını təmin etmək üçün iqlim sahəsində təhsilin və kommunikasiya səylərinin gücləndirilməsinin zəruriliyini önə çıxarır.

Nəticələr həmçinin iqlim dəyişikliyini nəzərə alan həllərin kənd təsərrüfatı, enerji və nəqliyyat kimi iqtisadiyyatın müxtəlif sektorlarına inteqrasiyasının vacibliyini vurğulayır. Azərbaycan dayanıqlı təcrübələri təşviq etməklə və iqlim dəyişikliyinin təsirlərinə davamlı infrastruktura sərmayə qoymaqla onun mənfi təsirlərini aradan qaldıra və daha dayanıqlı gələcək qura bilər.

## Məhdudiyyətlər

Bu tədqiqat Azərbaycanda iqlim dəyişikliyi barədə məlumatlılığa dair faydalı informasiya təqdim etsə də, keçirilən sorğuların məhdudiyyətlərini qəbul etmək də vacibdir. Seçmə üsulunun istifadə edildiyi küçə sorğusunun iştirakçıları bütün əhalini təmsil etməyə bilər, elektron sorğunun dairəsi isə internetə çıxışı olan iştirakçılarla məhduddur. Bundan əlavə, tədqiqat konkret bir zaman kəsiyi üzrə keçirilib və nəticələr iqlim dəyişikliyi barədə məlumatlılıq səviyyəsindəki uzunmüddətli trendləri əks etdirməyə bilər.

**Bu məhdudiyyətlərə baxmayaraq, bu tədqiqat Azərbaycanda iqlim dəyişikliyi barədə məlumatlılığın mövcud vəziyyəti haqqında faydalı informasiya təqdim edir və gələcək tədqiqatlar üçün istinad nöqtəsi yaradır.**

**Video və foto sorğu ilə tanış olmaq üçün *bu linkə* daxil ola bilərsiniz.**

KİTABISTAN
kitabistan.org
nordentalks.com